# Zaqatalada şəhid Orxan Cumayevin xatirəsi anılıb

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarından biri də Zaqatala şəhərindən olan Orxan Cumayevdir. Noyabrın 2-si Orxanın şəhadətə yüksəlməsinin ikinci ili tamam oldu.




Zaqatala Rayon İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, şəhidin ildönümü ilə əlaqədar icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyətin nümayəndələri, ailə üzvləri və doğmaları onun məzarını ziyarət edərək üzərinə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad edib, ruhuna dualar oxuyublar. Anım tədbirində 44 gün davam edən Vətən müharibəsində qazanılan tarixi Qələbədən, Orxan Cumayevin keçdiyi şərəfli döyüş yolundan, qəhrəmanlığından söz açılıb, şəhidlərin əziz xatirələrinin heç bir zaman unudulmayacağı vurğulanıb.

Orxan Cumayev 2000-ci il yanvarın 14-də Zaqatala şəhərində anadan olub. O, 2018-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Vətən müharibəsinin ilk günlərindən cəbhəyə yollanan Orxan Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub, Zaqatala şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi igidliyə görə o, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

Azərbaycan.- 2022.- 3 noyabr.- S.5.